Əbülfət MƏDƏTOĞLU

# TUĞ KƏNDİNİN NAĞILI



Bu dünyada Tuğ adlı bir dağ kəndi var. Şəlaləsi, meşələri, bulaqları və bir də Nilufər çiçəyilə yazılıb yaddaşıma. Kənd uşaqlarının payına düşən hər nə varsa, mənim də canıma-qanıma hopub, payıma düşüb orada. Həmin o dağ kəndində – Tuğ kəndində mənim də uşaqlıq ləpirlərim qalıb. O uşaqlıq ləpirlərimdə düşmən "mina əkir" indi... Uşaqlığımı, xatirələrimi, dünənimi göyə sovurmaq üçün... O uşaq isə... Beyləqanda bir uşaq bağçasında... Bakıda bir yataqxana küncündə günlərini sayır. Hərdən də özü-özüylə ya "beşdaş" oynayır, ya da nağıl uydurur – özünün "Tuğ nağılları"-nı. Uşaq ki uşaq...

***

Hərdən öz-özünə deyir: dünya mənim evimdi!.. Çox yekə sözdü, lap yekə. Özü də bir uşaq üçün. Əslində, o deməlidi ki, "açarla oynayıram çadırların dibində...". Hə, açarlar... qaçqınlar... uşaqlar... İşə baxın, çadırlar söykənib bir-birinə. Bir-birinin də nəfəsinə isinir çadırlar. Elə uşaqlar da. Bir ömür isə çadırların içində saralır, qaralır və kül olub səpilir göy üzünə... yerə ulduz-ulduz yağmaq üçün... İşıq salmağa geridə qalan izinə...

***

Yer üzündə ana qucağından isti guşə, körpə qığıltısından həzin musiqi varmı, görəsən? Soruşur o uşaq öz-özündən. Soruşa-soruşa da böyüyür... böyüyə-böyüyə də öncə ağlına gətirir, sonra da ürəyinə və dilinə. Və deyir ki, Ana – Ana torpaq! Ananın yetirdiyi bala. Ananın, balanın sığındığı bayraq!.. Bala-övlad – əsgər. Əsgər başını qoyur sevgisini tapdığı ana sinəsinə – Vətənin köksünə. Ana pıçıldayır: – Qalx, boyuna qurban! Qalx, özünü göstər!

Qalxır, boyunu da göstərir, özünü də əsgər. Və hamının eşidəcəyi səslə deyir:

– Mən – Xilaskar!.. Şəhid... Qazi... Anam üçün –Vətən üçün əsgər!

Qalxdım ki, görəsən, ...sevinəsən...Və biləsən ki, mənə də fəxarətlə Oğlum! – deyir Anam – Vətən!

***

Tutub üç nəvəsinin – Nigarın, Aysunun və Atillanın əlindən... Gəldiyi yolu geri dönür Tuğdan gələn o uşağın atası nəvələriylə... Dönür... bükülmüş qəddini dik tutaraq... dönür bir köklü qol-budaq... dönür sətir-sətir... varaq-varaq... Nəvələr də sevinclərini gizlətmirlər... Soruşurlar birnəfəsə... Baba, kəndimizə gedirik? – deyir Nigar... Bizim də kəndimiz var! – səslənir Aysu... Nağıldakı kəndimiz! – mövzunu tamamlayır Atilla... Nağılla yaşadıb sevdirdiyi kəndə üz tutub oğul qanı çilənmiş bu yolla nağılın son sözünü pıçıldayan baba... Göydən üç alma düşdü... QAYIDIRIQ! Bu gerçək bir dönüşdü!..